# LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

**EU4Business Proqramının III fazası**



**İcra müddəti:** 03.05.2023 - 02.05.2027

**ŞT ölkələri:**
Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

**Aİ-nin maliyyə yardımı:** € 3 094 052

**Ümumi büdcə:** € 3 094 052

**İcraçı təşkilat(lar):**
GOPA

**Internet səhifəsi:** eu4business.eu

**Layihənin təsviri:**

EU4Business Proqramı Şərq Tərəfdaşlığı (ŞT) ölkələrində İqtisadi və İnvestisiya Planının (İİP) icrasına dəstək verməklə, regionda davamlı və ədalətli iqtisadi inkişafa töhfə verir. Proqram Şərq Tərəfdaşlığı regionunda özəl sektorun inkişafına yönəlmiş bütün Aİ layihələrinin mütəmadi və hərtərəfli monitorinqini həyata keçirəcək, regional və ikitərəfli EU4Business layihələrinin nəticələrini qiymətləndirəcək, eləcə də Aİ tərəfindən göstərilən dəstəyin miqyasını və tanıdılmasını maksimum səviyyəyə çatdıracaq.

**Gözlənilən nəticələr:**

1. Özəl sektorun dəstəklənməsinə yönəlmiş ikitərəfli və regional layihə və proqramlar, habelə onların təsiri barədə mütəmadi analitik hesabatların dərci (bura həmçinin yeni EFSD/EFSD+ zəmanət proqramları və qarışıq maliyyələşdirmə alətləri çərçivəsində icra olunan əməliyyatlar da daxildir).
2. Aİ tərəfindən dəstəklənən proqramların təsirini, xüsusilə də ən həssas və dəstəkdən kənarda qalan qruplar üçün maksimum dərəcəyə çatdırmaq məqsədilə potensial benefisiarlarla kommunikasiyanın gücləndirilməsi və əlaqələrin artırılması.
3. Şərq Tərəfdaşlığı regionunda, xüsusilə KOB-lar və tərəfdaş hökumətlər arasında Aİ-nin özəl sektoru dəstəkləyən əsas tərəfdaş olaraq nüfuzunun və "EU4Business" proqramının bir brend kimi möhkəmləndirilməsi. EU4Business təşəbbüsünün və müvafiq layihələrin Şərq Tərəfdaşlığının biznes ictimaiyyəti arasında tanıdılması daha da gücləndiriləcək.
4. Regionda Aİ-nin dəstəyi ilə hazırlanmış Ağıllı ixtisaslaşma strategiyalarının icrasına köməklik göstərilməsi.